**UOT.343**

# PREYUDİSİYANIN ANLAYIŞI BARƏDƏ BƏZİ QEYDLƏR

**F.M.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***firuza.abbasova@gmail.com***

*Preyudisiya institutu həm sahəvi, həm də sahələrarası hüquq institutu kimi ədəbiyyatda bir çox tədqiqatçı-alimlər tərəfindən araşdırılmışdır. Bu problemlə bağlı mühüm məsələlərdən biri də, preyudisiyanın mahiyyəti nəzərə alınmaqla onun ən mühum əlamətlərini əks etdirən anlayışının verilməsi məsələsidir. Müasir dövrdə bu instituta bir çox müəlliflər tərəfindən anlayış verilsə də, onların əksəriyyəti sadə məntiq qaydalarına uyğun gəlmir. Bu məqalədə müəllif tərəfindən preyudisiya institutuna onun ümumilikdə prosessual hüquqda yerinə yetirdiyi funksiyaları nəzərə almaqla anlayış verilmişdir.*

**Açar sözlər:** preyudisiya, həqiqilik prezumpsiyası, məhkəmə hökmü

Preyudisiya institutunu araşdırarkən onun anlayışını müəyyənləşdirmək vacib məsələlərdən biridir. Bu institutun hansı məzmunda qavranılması onun mahiyyəti və əhəmiyyətini ifadə edən əsas elementidir.

Preyudisiya anlayışı prosessual ədəbiyyatda hələ də, müəlliflər arasında *consensus opinio doctorum* əldə olunmayan məsələlərdən biri kimi qalmaqdadır.

Sovet hüquq ədəbiyyatında preyudisiyaya dair ilk genişhəcmli tədqiqat işi B.M. Semyonov tərəfindən aparılmışdır. O, ilk əsərlərində preyudisiyanı "preyudisiyal başlanğıc" kimi ifadə edərək bu anlayış çərçivəsində qərarın (hökmün) qanuni qüvvəsi ilə ifadə olunmuş, konkret şəxslərə aid hüquqi faktlar və hüquq münasibətləri barədə məhkəmənin çıxardığı nəticənin qətiliyi və çıxarılan bu nəticə eyni subyektlərə dair eyni fakt və münasibətlərin mövcudluğu barədə olduqda digər məhkəmə və inzibati orqanlar üçün də məcburiliyini başa düşürdü (9, 8-9). Daha sonrakı əsərlərində B.M.Semyonov preyudisiyanı başqa məzmunda, "qərar və hökmlərin qarşılıqlı məcburiliyi" kimi ifadə etmişdir (10, 139-185). Preyudisiyanın bu məzmunda adlandırılmasına K.S.Yudelson və P.Y.Trubnikovun əsərlərində də rast gəlmək mümkündür (15, 221-247; 13, 38-46).

Aydındır ki, müəlliflər bu anlayışda məhkəmə qərarının preyudisiallığı ilə onun istisnalığı əlamətlərini qarışdırmışlar. Zaman keçdikcə, preyudisiya-

nın bu məzmunda anlayışı elmi ədəbiyyatda haqlı olaraq tənqid edildi və ədəbiyyatda qəbul olunmadı. M.Q.Avdyukov preyudisiya termini barədə elmi ədəbiyyatda mövcud mübahisəyə dair fikirlərini ifadə edərkən bildirir ki, "burada fikir ayrılığı məsələnin məzmunu barədə deyil, onun hansı terminlə ifadə olunmasındadır." Onun fikrincə, daha sadə və ənənəvi sayılan "preyudisiallıq (предрешимость)" sözünə üstünlük vermək lazımdır. B.M.Semyonovun təklif etdiyi ifadə isə daha çox qısa tərifə bənzəyir. Hər qısa tərif kimi o da dəqiq deyildir (belə ki, burada qərarların hansı məsələlər üzrə qarşılıqlı məcburiliyi və s. məsələlər ifadə olunmamışdır (2, 159-160).

Fikrimizcə, preyudisiyanın "qərar və hökmlərin qarşılıqlı məcburiliyi" (işarələnmə bizə aiddir) kimi ifadə olunması onun mahiyyətinə uyğun gəlmir. Belə ki, burada söhbət yalnız qəbul edilən birinci hökm və ya qərarın digər hökm və ya qərar üçün hüquqi məcburiliyindən gedə bilər. Digər hökm və ya qərarla birinci hökm və ya qərar arasında isə yalnız və yalnız "qarşılıqlı əlaqə" ola bilər ki, bu da onların araşdırma predmetinin məzmunu ilə əlaqədardır. Yəni birinci qəbul edilən hökm və qərara uyğun olaraq qəbul edilmiş digər hökm və qərar obyektiv olaraq birinci qərar və hökm üçün heç bir məcburi hüquqi qüvvəyə malik deyildir və zaman baxımından bu mümkün deyildir. Ona görə də, hesab edirik ki, onların "qarşılıqlı məcburiliyi"ndən danışmaq düzgün deyildir.

Preyudisiya termininin mənası barədə yalnız onu qeyd etmək istərdik ki, preyudisiya sözünün latın dilində hərfi tərcümədən mənası "qabaqcadan qərar vermə" deməkdir. Başqa sözlə, hərfi mənada preyudisiya hər hansı məsələ barədə əvvəlcədən qərar qəbul etmə kimi başa düşülür. Onu da qeyd edək ki, klassik Rusiya prosessualist-alimləri, xüsusilə inqilabaqədərki rus müəllifləri adətən, preyudisiya sözünün rus dilindəki ekvivalenti hesab oluna bilən *предрешимость* sözünü preyudisiya termininin əvəzinə işlədirdilər. Azərbaycan dilində preyudisiya sözünün lakonik ekvivalenti olmadığına görə və hətta olsa belə hesab edirik ki, anlaşılmazlığın olmaması üçün bu institut AR CPM-dəki kimi - preyudisiya adlandırılmalıdır. Onun "hökm və qərarların məcburiliyi" termini ilə ifadə olunmasına heç bir lüzum yoxdur.

Fikrimizcə, preyudisiyaya onun latın dilindəki hərfi mənasından çıxış edərək anlayış vermək də düzgün deyildir (burada söhbət termindən deyil, onun məzmunundan gedir). Çünki həqiqətin müəyyən edilməsinin məhkəmə icraatının üzərinə vəzifə kimi qoyulmasını nəzərdə tutan AR Konstitusiyasının 125.7-ci maddəsini nəzərə alsaq, onda bu anlayış çərçivəsində hakimin həqiqətin müəyyən edilməsi vəzifəsi ilə əlaqədar preyudisiya institutu çərçivəsində səlahiyyətlərinin genişləndirilməsinin bu anlayışda ifadə edilməsi vacibdir.

Ona görə də, bununla bağlı ədəbiyyatdakı mövcud fikirləri təhlil etmək zəruridir. Elmi ədəbiyyatdakı fikirləri araşdırmazdan əvvəl qeyd edək ki, müəlliflərin bir qismi preyudisiyaya, digər qismi isə preyudisiallığa anlayış verir.

Preyudisiyanın anlayışı barədə V.K.Babayev, Y.L.Ştatutinin fikrinə isti-

nadən göstərirdi ki, əvvəllər həll olunmuş işlə əlaqəli olan işi araşdıran məhkəmə üçün tətbiq edilməsi məcburi olan, hüquqi faktın və ya hüquq münasibətlərinin mövcudluğu barədə qanuni qüvvəyə minmiş məhkəmə hökmü və ya məhkəmə qərarı və ya səlahiyyətli orqan tərəfindən müəyyən olunmuş qaydada qəbul edilən inzibati akt preyudisiya kimi başa düşülür (3, 33-34).

Göründüyü kimi, burada müəllif preyudisiyaya anlayış verərkən onu sübutetməyə aid hüquq norması kimi deyil, daha çox qərarın preyudisiallığı ilə eyniləşdirmişdir. Buna, müəllifin sonrakı fikirlərində də rast gəlmək olar. Müəllif ilk əvvəl qeyd edir ki, preyudisiyanın predmetini hüquqi faktlar və hüquq münasibətləri təşkil edir (3, 33-34). Daha sonra isə göstərir ki, məhkəmə qərarının preyudisiallığı hüquqi faktı və hüquq münasibətlərini müəyyənləşdirirsə, məhkəmə hökmləri daha da irəli gedərək yalnız törədilən hərəkətləri deyil, onun müvafiq şəxs tərəfindən törədilməsi (törədilməməsi) faktını müəyyənləşdirir (3, 35).

Fikrimizcə, bununla yanaşı V.K.Babayevin preyudisiyanın anlayışı kimi göstərdiyi tərifdə bir çox müəlliflər tərəfindən birmənalı qarşılanmayan inzibati qərarların preyudisiallığı ifadə olunsa da, bu qərarların ibtidai araşdırma orqanları üçün hüquqi qüvvəsi məsələsi diqqətdən kənarda qalmışdır. Qeyd olunanlar əsasında hesab edirik ki, preyudisiyaya verilən bu anlayış da natamam hesab olunmalıdır.

V.D.Şundikovun fikrinə görə isə, preyudisiya işin hallarının sübutetmə vasitəsi deyil, sübutları qiymətləndirən şəxsin və məhkəmənin hökmün çıxarılması zamanı cinayət işinin həll edilməsi üçün əhəmiyyətli olan halları müəyyən olunmuş kimi qəbul etmək hüququnu təsbit edən ümumi müddəadır (14, 28).

Bu anlayışı məzmununa görə düzgün hesab etmək olar. Lakin burada bəzi məqamları qeyd etməliyik. Fikrimizcə, "cinayət işinin həll edilməsi üçün əhəmiyyətli olan halları müəyyən edilmiş kimi qəbul etmək hüququ"nun hüquqi əsası, yəni onun nəyin əsasında yarandığını preyudisiyanın anlayışında qeyd etmək zəruridir. Preyudisiya institutu məhkəmə qərarının preyudisiallığı əsasında mövcud olduğu üçün hesab edirik ki, bu əlamət preyudisiyanın əsas, ən mühüm əlaməti kimi onun anlayışına daxil edilməlidir.

Qeyd olunan təriflərin əksəriyyəti sahələrarası preyudisiya ilə bağlıdır. Bilavasitə cinayət prosesində preyudisiyanı araşdırarkən milli müəlliflərdən olan R.İskəndərov preyudisiyaya sadə anlayış verilməsi ilə razılaşaraq hesab edir ki, preyudisiya dedikdə, əvvəlki məhkəmə qərarları və hökmlərində əks olunmuş fakt və hüquqi nəticələrin ibtidai araşdırma orqanları və məhkəmə üçün əhəmiyyəti başa düşülür (5, 22). Preyudisiyaya belə bir anlayış verilməsini prinsip etibarilə qəbul etmək mümkündür. Müəllifin düzgün hesab etdiyi anlayışda preyudisiyanın hökmün həqiqiliyi prezumpsiyasına əsaslanaraq onu "fakt və hüquqi nəticələrin ibtidai araşdırma orqanları və məhkəmə üçün" "məcburiliyi" kimi deyil, "əhəmiyyəti" kimi müəyyənləşdirməsi ilə razılaşmaq çətindir.

Bununla yanaşı, fikrimizcə, bu anlayışında da preyudisiyanın bir çox əsas, ən mühüm əlamətləri diqqətdən kənarda qalmışdır. Belə ki, burada da preyudisiyanın məhz qanuni qüvvəyə minmiş hökm və qərarın əsasında yarandığı və mövcud olduğu əks olunmamışdır. Ona görə də, hesab edirik ki, müəllifin düzgün hesab etdiyi bu anlayışı da mükəmməl hesab etmək olmaz.

Cinayət-prosessual preyudisiyaların dissertasiya səviyyəsində tədqiqatını aparan O.V.Levçenko preyudisiyaya aşağıdakı kimi anlayış verir: "Preyudisiya - qanuni qüvvəyə minmiş məhkəmə hökmünün (qərarının) digəri üçün məcburiliyini özündə ifadə edən, eyni işin tam və ya qismən təkrar baxılmasını aradan qaldıran hüquqi qaydadır (7, 5). Preyudisiyanın belə məzmunlu təriflə ifadə olunması V.Ryasençevin təklif etdiyi anlayışı ilə müəyyən istisnalarla eynilik təşkil edir. Belə ki, V.Ryasençev göstərir ki, preyudisiya qanuni qüvvəyə minmiş bir məhkəmənin qərarının (hökmünün) digəri üçün məcburiliyini müəyyən edən, eyni işin tam və ya qismən təkrar baxılmasını istisna edən hüquqi qaydadır (8, 23). Bir-birini təkrarlayan hər iki fikirdə müəyyən məqamlar qeyd olunmalıdır. Belə ki, hər iki anlayışda qanuni qüvvəyə minmiş məhkəmə qərarının digəri üçün məcburiliyi ifadə olunsa da, məhkəmə qərarının və hökmünün yalnız digər məhkəmə üçün deyil, ibtidai araşdırma orqanları üçün də məcburiliyi nəzərə alınmamışdır. Düşünürük ki, bu hala münasibətdə R.İskəndərovun mövqeyini uğurlu hesab etmək lazımdır.

A.V.Smirnov və K.B.Kalinovskinin preyudisiyaya verdiyi anlayışı nisbətən uğurlu hesab etmək olar. Onlara görə, preyudisiya dedikdə, icraatında iş olan ibtidai araşdırma orqanı və məhkəmənin digər iş üzrə qanuni qüvvəyə minmiş qərarla qəbul olunmuş halları müəyyən olunmuş kimi qəbul etmək vəzifəsi başa düşülür. Lakin burada da digər iş üzrə qərar qəbul etməli olan subyektin işi öz daxili inamı əsasında həll etməsi müddəası və göstərilən subyektlərdə qanuni qüvvəyə minmiş qərarla müəyyən edilmiş halın həqiqiliyinə əsaslı şübhələrin yaranması nəzərə alınmamışdır (11, 226).

Preyudisiyanın anlayışını xüsusi olaraq araşdıran müəlliflərdən biri də U.M.Vəliyevadır. O, preyudisiya dedikdə, əvvəl baxılmış cinayət, mülki və inzibati işlə əlaqəli olan cinayət işinə baxan məhkəmə üçün, eyni işlər yenidən məhkəmə araşdırmasının predmeti olarsa, məhkəmə və inzibati orqanlar tərəfindən faktlar barədə çıxarılan nəticələrin məcburiliyini başa düşürdü (4, 172). Bu anlayışda da hökm və ya qərarın qanuni qüvvəyə minməsi xüsusiyyəti diqqətdən kənarda qalmışdır. Qeyd olunanlara əsasən bu tərifi də tam mükəmməl hesab etmək olmaz.

U.M.Yusubovaya görə preyudisiya dedikdə, baxılan iş üçün əhəmiyyətli olan və əlavə yoxlanılmadan qəbul olunan qərarın əsasına qoyulan səlahiyyətli orqanın əvvəllər qəbul etdiyi qərarda müəyyənləşdirilmiş halları başa düşülməlidir. Qərar preyudisiallıq əlamətinə malik olmasa da, məhkəmə (ibtidai araşdırma orqanı) bu imkandan istifadə etmədikdə preyudisiya mövcud olmaya bilər (16, 32). Başqa sözlə, qərarın əlaməti kimi versə də müəllif preyu-

disiyanı həmin əlamətin realizəsi kimi nəzərdən keçirir.

Ədəbiyyatda bəzən qeyd edilir ki, yalnız qanuni qüvvəyə minmiş məhkəmə hökmü, qərarı, qətnaməsi və qərardadı ilə müəyyən edilmiş faktlar deyil, həmçinin prokuror və ibtidai araşdırma orqanının cinayət işinin xitam edilməsi barədə qərarı ilə müəyyən edilmiş faktlar da preyudisial əhəmiyyətə malikdir. Qeyd edək ki, bu mövqe mahiyyət etibarilə milli müəlliflərdən olan F.Y.Xəlilov tərəfindən də dəstəklənir (1, 49). Belə ki, müəllif göstərir ki, AR CPM 39.1.7-ci maddəsinə görə müstəntiq tərəfindən cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarın preyudisial qüvvəsi də vardır. Göründüyü kimi, bu fikirlərin müəyyən normativ əsası da mövcuddur. Bu fikrin normativ əsası kimi AR CPM-in 65-ci maddəsi çıxış edir. Lakin hesab edirik ki, belə fikirlərdə nəzəri baxımdan preyudisiallıqla istisnalıq qarışdırılmışdır.

Cinayət prosesində preyudisiyanın anlayışını verməzdən əvvəl onun hüquq sistemində yerinə yetirdiyi əsas funksiyalara qısaca nəzər yetirmək vacibdir. Çünki preyudisiyanın bu funksiyaları onun təyinatını müəyyənləşdirir və anlayışında ən mühüm əlamətlər kimi çıxış edə bilir.

Preyudisiya institutunun əsas funksiyaları kimi eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni təmin etmək və ya prosessual qənaət funksiyasını, məhkəmə qərarları arasındakı stabilliyi təmin etmək və bu zaman cinayət prosesində həqiqətin müəyyənləşdirilməsi tələbinin təmin olunmasını aid etmək olar.

Preyudisiya institutunun cinayət prosesində eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni təmin etmək funksiyasının mahiyyəti eyni faktiki halların təkrarən, lüzumsuz olaraq araşdırılması və onlar barəsində yenidən nəticəyə gəlinməsinin qarşısını almaqdan ibarətdir. Yəni eyni faktiki halın olub-olmaması əvvəlki proseslər çərçivəsində ədalət mühakiməsini həyata keçirən məhkəmə sisteminin həlqəsinə daxil olan digər məhkəmə tərəfindən müəyyənləşdirilmişdirsə, onların yenidən müəyyənləşdirilməsinə ehtiyac yoxdur. Bu, ilk növbədə, prosessual qənaət prinsipinə ziddir və əsassız olaraq dövlət büdcəsi vəsaitlərinin xərclənməsi və ədalət mühakimə orqanlarının yüklənməsinə gətirib çıxarır.

Məhkəmə qərarlarının stabilliyini təmin etmək funksiyası dedikdə isə, həmin qərarlar, onların məzmununda müəyyənləşdirilmiş hallar arasındakı ziddiyyətlərin olmamasını təmin etmək başa düşülür. Bəlli olduğu kimi iş üzrə həll olunmalı olan məsələlərin eyni bir proses çərçivəsində həll edilməsinin qeyri-mümkünlüyü prosesin parçalanmasına səbəb olur. Eyni faktiki hallara dair məsələlərin ayrı-ayrı proseslərdə müəyyənləşdirilməsi ziddiyyətlərin yaranmasına şərait yaradır. Bu ziddiyyətlərin aradan qaldırılması üçün ya onları yaradan səbəblər aradan qaldırılmalı, ya da preyudisiya qaydalarının köməkliyi ilə bu ziddiyyətlər həll edilməlidir. Hüquq elmində bu ziddiyyətləri yaradan səbəblərin aradan qaldırılması üçün normalar işlənilib hazırlanmamışdır. Onların aradan qaldırılması üçün ən optimal vasitə preyudisiya

institutudur. Belə ki, məhz preyudisiya vasitəsilə müxtəlif məhkəmə qərarları arasında ziddiyyətlərin yaranmaması üçün real imkanlar mövcuddur.

Prosesin parçalanması qaçılmazdırsa və bunun aradan qaldırılmasının başqa çıxış yolu yoxdursa, bu zaman məhkəmə qərarları arasında baş verə biləcək ziddiyyətləri həmin qərarlar arasında əlaqə yaratmaqla aradan qaldırmaq olar. Bununla da, preyudisiya institutunun əsas funksiyalarından biri - eyni faktiki halların müəyyən edildiyi proseslər arasında əlaqə yaratmaq funksiyası yaranır. Cinayət prosesində bu funksiyanı özündə ifadə edən imperativ xarakterli normanın mövcud olması cinayət prosesini həyata keçirən orqanları və vəzifəli şəxsləri cinayət işi üzrə icraatı həyata keçirərkən əvvəlki qəbul edilən prosessual aktları nəzərə almağa məcbur edir. Bu qaydaya əməl olunmamasının mənfi nəticələri ola bilər. Ona görə də, cinayət prosesini həyata keçirən orqanlar və vəzifəli şəxslər cinayət işi üzrə icraatı həyata keçirərkən sübutetmə predmetinin hər bir elementinin digər proses çərçivəsində tədqiq edilib-edilmədiyini aydınlaşdırmalıdırlar. Yalnız bu qaydaya əməl etməklə, məhkəmə qərarının (hökmünün) qanuni qüvvəsinin aliliyini təmin etmək mümkündür. Əks halda ədalətli hökmləri belə şübhə altına almaq olar. Mülki-prosessual hüquq elmində bəzi alimlər hesab edirlər ki, müəyyən şərtlər çərçivəsində bir-birinə zidd olan məhkəmə qərarları eyni vaxtda mövcud ola bilər. Belə müəlliflərdən biri E.V.Klinova qeyd edir ki, işdə iştirak edən tərəflər və prokuror işi nəzarət qaydasında mübahisələndirmirsə, müəyyən edilməli olan fakt barədə iki ayrı-ayrı məzmunlu qərar qüvvədə qalacaqdır. Müəyyən müddət keçdikdən sonra qərardan ümumiyyətlə, şikayət verilməsi imkanlarının qeyri-mümkünlüyünü nəzərə alsaq, onda tam və ya qismən bir-birinə zidd olan iki qanuni qüvvəyə minmiş məhkəmə qərarları eyni zamanda qüvvədə olacaqdır. Vəziyyətdən çıxış yolu kimi, mülki-prosessual qanunvericiliyə sonuncu məhkəmə qərarının preyudisial hüquqi qüvvəyə malik olmasını müəyyən edən normanı daxil etmək olar. Bu vəziyyətin aradan qaldırılması üçün hər iki qərarın preyudisiallığının aradan qalxdığını və işin digər sübutlar əsasında həll edilməli olduğunu öz məzmununda ifadə edən norma da təklif etmək olar (6, 97). Hesab edirik ki, bir-birinə zidd olan ədalət mühakimə orqanlarının qərarlarının eyni zamanda qüvvədə olması mahiyyət etibarilə məhkəmə qərarının nüfuzuna ciddi xələl gətirir və bunun aradan qaldırılması üçün hüquq sahələrində mövcud olan qaydalardan istifadə etmək zəruridir.

Qeyd edək ki, preyudisiya institutu çərçivəsində onun yuxarıda qeyd olunan funksiyaları ilə yanaşı, cinayət prosesində həqiqəti müəyyənləşdirmək məqsədinin tələblərinə cavab verməsi də təmin olunmalıdır. Belə ki, preyudisiya institutuna dair sübutetmə qaydaları məhkəmə qərarının yalnız bir funksiyasını əsas götürmüş olsa, bu, mənfi nəticələrə gətirib çıxara bilər.

Məhz, qeyd olunanlar baxımından hüquq ədəbiyyatında preyudisiyanın mahiyyəti barədə bu funksiyaların birinə əsaslanmaqla irəli sürülən fikirlərlə razılaşmaq olmaz. Belə müəlliflərdən biri E.B.Tarbaqayeva qeyd edir ki,

preyudisiyanın mahiyyəti iş üzrə obyektiv həqiqətin müəyyən edilməsində məhkəməyə kömək etməkdən deyil, əvvəl qəbul edilmiş qərarın qanuni qüvvəsini təmin etməkdən, başqa sözlə, dərketmə sahəsində deyil, qanuni qüvvəyə minmiş qərarın dəqiqliyi və qətiliyinin təşkil edilməsi sahəsində eyni şəxslər arasında (və ya eyni şəxslərin iştirakı ilə) mübahisəyə dair qəbul ediləcək qərarla qarşılıqlı əlaqədə qərarın təkzibedilməzliyini, müstəsnalığını və məcburiliyini təmin etməkdən ibarətdir. Müəllif eyni zamanda əvvəlki qərarlara zidd məhkəmə qərarlarının qəbul edilməsinin mümkünlüyünü istisna edir (12, 58). Müəllifin fikirləri ilə razılaşsaq, onda preyudisiya institutunun həqiqətin formal sübutlar sisteminin qalığı olması barədə deyilənləri təsdiqləmiş oluruq. Fikrimizcə, preyudisiya institutunun mahiyyətini həqiqətin müəyyən edilməsi ilə deyil, yalnız məhkəmə qərarının qanuni qüvvəsinin təminatı kimi müəyyənləşdirmək düzgün deyildir.

Preyudisiya institutu sübut hüququnun əsas institutlarından biri kimi, daha əvvəl qəbul edilmiş qərarı nəzərə almaqla sübutetmənin məqsədinə zidd ola bilməz. Məlum olduğu kimi, AR cinayət prosesində sübutetmənin məqsədi həqiqətin müəyyən edilməsidir. Bu məqsəd birbaşa şəkildə AR CPM-də göstərilməsə də, AR Konstitusiyasının 127.VII, AR CPM-in 8, 28 və digər maddələrinin kompleks təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, həqiqətin müəyyən edilməsi sübutetmənin məqsədi kimi qəbul edilir. Bir qayda olaraq məhkəmələrin ədalətli qərar qəbul etməsi güman edilir. Lakin bu, onların səhv etmək ehtimalını aradan qaldırmır. Hər bir iş üzrə həqiqət müəyyən edilsəydi, onda məhkəmə qərarlarının qarşılıqlı əlaqəsi barədə məsələ həll olunarkən eyni faktiki hal üzrə qəbul edilən qərarın üstünlüyünün qəbul edilməsi heç bir problem yaratmaz və hamı bununla razılaşardı. Ona görə də, hesab edirik ki, həqiqətin müəyyən edilməsi tələbi həm iş üzrə toplanmış sübutların, həm də preyudisiyal faktların qiymətləndirilməsinin nəticəsində irəli sürülməlidir. Məhz bunun əsasında əvvəl qəbul edilmiş məhkəmə qərarındakı səhv müəyyənləşəcək və aradan qaldırılmış olacaqdır.

Ümumi şəkildə cinayət prosesində preyudisiyanın anlayışını eyni faktiki hallara dair məhkəmə qərarları arasında ziddiyyətə yol verməmək məqsədilə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının sübutetmədə istifadə edilməsini müəyyənləşdirən hüquqi qayda kimi müəyyən etmək olar. Lakin bu anlayışda da hökmün stabilliyi ilə onun həqiqətin müəyyən edilməsi məqsədinə cavab verməsi müddəasına uyğunluğu diqqətdən kənarda qalacaqdır.

Qeyd olunanları ümumiləşdirərək hesab edirik ki, preyudisiyanın anlayışını aşağıdakı kimi vermək olar:

Preyudisiya dedikdə, qanuni qüvvəyə minmiş məhkəmə qərar və hökmlərində əks olunmuş fakt və hüquqi nəticələrin ibtidai araşdırma orqanları və məhkəmə üçün məcburiliyi başa düşülür.

Qeyd edək ki, preyudisiyaya belə bir anlayışın verilməsini zəruri edən əhəmiyyətli hal qüvvədə olan AR CPM-in 142-ci maddəsidir.

Hesab edirik ki, preyudisiya institutunun cinayət mühakimə icraatında həyata keçirilməsi zamanı Avropa Məhkəməsinin presedent hüququnun nəzərə alınması zəruridir. Bu zərurət AİHM-in presedent hüququnun milli hüququmuzun tərkib hissəsi kimi çıxış etməsidir.

## ƏDƏBİYYAT


1. Xəlilov F.Y. Azərbaycan Respublikasının cinayət mühakimə icraatında müstəntiq tərəfindən icra edilən funksiyaların sistemi // Qanun, 2008, №04 (168), 47-55 s.
2. Авдюков М.Г. Судебное решение. М.: Госюриздат, 1959, 192 с.
3. Бабаев В.К. Презумпции в советском праве. М.: Горький, 1974, 124 с.
4. Велиева У.М. Понятие и значение преюдиции в советском уголовном процессе // Проблемы совершенствования советского законодательства. Труды ВПИИСЗ. Вып. 11. М., 1978, с.172-181
5. Искендеров Р. О преюдициальном значение приговора / Советская Юстиция. 1990, №22, с. 22-23.
6. Клинова Е.В. О преюдициальности судебного решения // Вестник Московского ун-та. Серия: Право. 2003. №6, с. 91-98.
7. Левченко О. В. Понятие презюмируемых, преюдициально установленных и общеизвестных фактов, особенности их использования в процессе доказывания по уголовным делам. Диссертация кандидата юридических наук. Казань 1994, 268 с.
8. Рясенцев В. Вопросы преюдиции при рассмотрении судами гражданских дел // Советская юстиция. 1985, №10, с. 23-25.
9. Семенов В.М. Преюдициальное начало в советском гражданском процессе: Автореф. дис. канд. юрид. наук. Свердловск, 1952, 19 с.
10. Семенов В.М. Взаимная обязательность решений и приговоров в советском гражданском процессе // Ученые записки Свердловского юридического института. Вопросы советского гражданского права и процесса. М.: Госюриздат, 1955, Т. 3, с. 139-185.
11. Смирнов А.В., Калиновский К.Б. Уголовный процесс. Учебник для вузов / Под ред.А.В. Смирнова. Изд. 2-е. Изд-во: Питер, 2004, 697 с.
12. Тарбагаева Е.Б. Истинность, преюдициальность и законная сила судебного решения // Проблемы доказывания по уголовным делам. Литвуз. Красноярск, 1988, с.52-59.
13. Трубников П.Я. Обязательность судебных решений в законодательстве и судебной практике // Советское государство и право. 1974, №2, с. 38-46.
14. Шундиков В.Д. Вопросы преюдиции в советском уголовном процессе // Вопросы уголовного процесса: Совершенствование деятельности правоохранительных органов по борьбе с преступлениями. Межвузовский научный сборник. Вып. 3. Изд-во Сарат. ун-та, 1984, с. 27-34.
15. Юдельсон К.С. Проблема доказывания в советском гражданском процессе. М.: Госюриздат, 1951, 292 с.
16. Юсубова У.М. Преюдиции в советском уголовном процессе. Дисс. к.ю.н. Москва, 1979, 225 с.


## НЕКОТОРЫЕ ЗАМЕТКИ О ДЕФИНИЦИИ ПРЕЮДИЦИИ


**Ф.М.АББАСОВА**


## РЕЗЮМЕ


Институт преюдиции был исследован в литературе учеными-исследователями как отраслевой и как межотраслевой правовой институт. Одна из задач связанная с этой

проблемой учитывая сущность преюдиции дать самые важные признаки понятия отражающее сущность преюдиции. Несмотря на то, что в современный период многие авторы дали понятие этого института, но большинство этих понятий при применение простого логического строя выходят из строя или же не подходят под этот порядок. В этой статье автор дал понятие института преюдиции, учитывая выполняемые функции в процессуальном праве.

**Ключевые слова:** преюдиция, презумпция истинности, судебный приговор

## SOME NOTES ON THE DEFINITION OF PREJUDICE

**F.M.ABBASOVA**

### SUMMARY

The lustitute of prejudice is analyzed in literature as a branch of legal institute. One of the principal issues of the problem is the definition of the major features of the notions reflecting the essence of prejudice.

**Key words:** presumption of truth, prejudicial, the judgment